## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

UOT 371

***Afiq Xanoğlan oğlu Əliyev,***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Lənkəran Dövlət Universiteti*

# PEDAQOJİ PROSESİ İDARƏETMƏ KONTEKSTİNDƏ MƏKTƏBLİLƏRDƏ MİLLİ-MƏNƏVİ VƏ BƏŞƏRİ DƏYƏRLƏRİN FORMALAŞDIRILMASI

***Афик Ханоглан оглу Алиев,***
*доктор философии по педагогике, доцент*
*Ленкоранский Государственный Университет*

# ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ И ЧЕЛОВЕЧЕСКИХ ЦЕННОСТЕЙ У УЧАЩИХСЯ В КОНТЕКСТЕ УПРАВЛЕНИЯ ПЕДАГОГИЧЕСКИМ ПРОЦЕССОМ

***Afig Khanoglan oglu Aliyev,***
*doctor of philosophy in pedagogy, associate professor*
*Lankaran State University*

# FORMATION OF NATIONAL-MORAL AND HUMAN VALUES IN SCHOOLCHİLDREN IN THE CONTEXT OF MANAGEMENT PEDAGOGICAL PROCESS

**Xülasə:** Məqalədə pedaqoji prosesi idarəetmə kontekstində məktəblilərdə milli-mənəvi və bəşəri dəyərlərin formalaşdırılmasının prioritet istiqamətləri müəyyənləşdirilməklə onun təcrübi-metodik bazasının elmi əsasları sistemləşdirilmişdir. Xüsusi olaraq qeyd olunur ki, pedaqoji prosesin struktur xüsusiyyətləri və optimal üsullarının, o cümlədən həm metodiki, həm də idarəetmə mexanizminin məktəblilərdə milli-mənəvi və bəşəri dəyərlərin formalaşdırılması zəminində həyata keçirilməsi texnologiyasının praktik tətbiqi həyati zərurətdir.

***Açar sözlər:*** *Pedaqoji proses, milli-mənəvi dəyərlər, bəşəri dəyərlər, pedaqoji monitorinq, etik davranış qaydaları*

**Резюме:** В статье систематизированы научные основы экспериментальной и методической базы, определены приоритетные направления формирования национально-нравственных и общечеловеческих ценностей у школьников в контексте управления педагогическим процессом. Особо подчеркивается, что практическое применение и оптимальных методов, структурных особенностей педагогического процесса, технологии реализации как методических, так и управленческих механизмов этой работы на основе в жизненно важно формирования у школьников национально-духовных и общечеловеческих ценностей.

***Ключевые слова:*** *педагогический процесс, национально-нравственные ценности, общечеловеческие ценности, педагогический мониторинг, правила этического поведения*

**Summary:** The article systematizes the scientific basis of its experimental and methodological base by identifying priority directions for the formation of national-moral and human values in schoolchildren in the context of managing pedagogical process. It is emphasized that the practical application of the structural features of the pedagogical process, optimal methods, technology for the implementation of both methodological and management mechanisms of this work on the basis of the formation of national-moral and human values in schoolchildren is vital necessity.

***Keywords:*** *Pedagogical process, national-moral values, human values, pedagogical monitoring, rules of ethical behavior*

Pedaqoji elmin əsas tədqiqat sahəsi olan, təlim, tərbiyə, təhsil və psixoloji inkişaf amillərini özündə cəmləşdirən pedaqoji proses, onun mərhələləri, qanunauyğunluqları, prinsipləri ilə bağlı elmi araşdırmalar hər zaman diqqət mərkəzində olmuşdur.

Pedaqoji prosesin strukturundan, diferensiallaşmasından asılı olaraq bu gün onun tədqiqinə ənənəvi yanaşmalardan fərqli üslubda yanaşılması olduqca aktualdır.

Məqalədə tədqiq edilən problemin metodoloji əsasını pedaqoji prosesi idarəetmənin elmi-nəzəri əsasları, milli-mənəvi və bəşəri dəyərlərin müasir tendensiyasına üstünlük verən dialektik yanaşma üzrə tərbiyə konsepsiyası təşkil edir.

Başqa peşə sahiblərindən fərqli olaraq müəllimin şəxsiyyəti onun işinə – pedaqoji fəaliyyətinə bilavasitə təsir göstərir. Müəllim təhsilalanları ilk növbədə, öz şəxsiyyəti ilə tərbiyə edir. Təlim-tərbiyə işində canlı müəllim qüvvəsini heç nə əvəz edə bilməz. Öz işinin öhdəsindən uğurla gəlmək üçün müəllim əsl mənada şəxsiyyət olmalı, özündə müsbət keyfiyyətlər formalaşdırmalıdır. Bununla əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli, 600 nömrəli əmri ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları"nda qeyd olunur: "Müəllim pedaqoji etika və əxlaq normalarına riayət edir, muəllim nufuzunu yüksək tutur, ziyalılıq numunəsi göstərir. Müəllim təhsilalanların şərəf və ləyaqətinə hormətlə yanaşır, əsassız mühakimələrə yol vermir, obyektivlik və qərəzsizlik numayiş etdirir" (9).

Pedaqoji proses təsir dairəsini genişləndirərək yeni, innovativ metod və vasitələrlə zənginləşdiyindən ona yeniləşən cəmiyyətin inkişafı prinsipləri əsasında yanaşılması zəruridir. Bu baxımdan müasir təhsil sisteminin tələblərinə uyğun standartlardan istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Yeni innovativ metod və üsulların tətbiqi, müasir didaktik materiallar, informasiya və kommunikasiya vasitələri də burada öz əksini tapmalıdır.

Pedaqoji prosesin struktur xüsusiyyətlərinin, optimal üsullarının, bu işin həm metodik, həm də idarəetmə mexanizminin məktəblilərdə milli-mənəvi və bəşəri dəyərlərin formalaşdırılması zəminində həyata keçirilməsi texnologiyasının praktik tətbiqi həyati zərurətdir. Bunun üçün təhsilin məzmunu milli-mənəvi dəyərlər süzgəcindən keçirilməli, millətə sevgi valideynlərə sevgidən, torpağa sevgi insanın böyüdüyü evə, məhəlləyə sevgidən başlamalı və saysız-hesabsız bütün milli-mənəvi sərhədlərədək inkişaf eləməlidir. Təhsilalanlara dövlət, dövlətçilik, tarix sevgisi aşılanmalıdır. Onlar XXI əsrin geniş dünyagörüşə malik fəal vətəndaşları kimi milli kökə, milli tarixə bağlılığı ilə qürur hissi keçirən, buraxılmış səhvlərdən dərs çıxaran, əldə olunmuş uğurlarla kifayətlənməyən, üzərinə düşən vəzifə məsuliyyətini dərk edən və onu layiqincə yerinə yetirməyə qadir insanlar kimi formalaşdırılmalıdırlar.

Pedaqoji prosesdə ən vacib məsələ onun məqsədinin və məzmun parametrlərinin qlobal miqyasda bəşəri tələblər əsasında formalaşdırılmasıdır. Lakin bu zaman pedaqoji prosesin əsas komponenti olan təhsilin ilk növbədə hər bir ölkənin strateji sahəsi olmasını, milli maraqlara, milli-mənəvi dəyərlərə, dövlətçiliyə xidmət etməyə yönəlməsini unutmaq olmaz. Qlobal miqyasda bəşərilik və milli maraqlar zəminində milli-mənəvi dəyərlər bəzi hallarda ziddiyyət təşkil edir. Milli maraqları, milli-mənəvi dəyərləri qorumaqla, qlobal miqyasda bəşəri kriteriyalara cavab verən sistemli yanaşmanın formalaşdırılması bu gün daha aktualdır.

Pedaqoji prosesi idarə etmək – bu prosesin təşkilini, gedişini, mərhələlərini, proses daxilində baş verən müxtəlif səviyyəli situasiyaları, müəllim-şagird münasibətlərini şüurlu surətdə tənzimləmək deməkdir. Pedaqoji prosesə rəhbərlikdə o zaman irəliləyiş əldə etmək olur ki, təcrübə ilə dərin biliyi birləşdirən peşəkarlıq səriştəsi əsas götürülsün.

Təlim, tərbiyə, təhsil və inkişaf anlayışları tarix boyu həmişə mövcud olmuşdur. Bu tərkib hissələri bütünlükdə eyni bir məqsədə xidmət edirlər. Məqsədəuyğun olaraq təşkilat forması kimi dərs məşğələsi zamanı işin icra prosesi təlim, təlim prosesinin nəticəsi kimi əldə olunan bilik təhsil, bu proses zamanı formalaşan şüur və davranış tərzi isə tərbiyədir.

Pedaqoji proses anlayışının mahiyyətinə və məzmununa pedaqoji ədəbiyyatda müxtəlif aspektdən yanaşılır. XIX əsrin sonlarında pedaqogika elmində P.F. Kapterev tərəfindən "pedaqoji proses" anlayışı işlənməyə başladı. O, pedaqoji prosesi "Şəxsiyyətin özünüinkişafı və da-

xili qüvvələri əsasında sosial ideala uyğun hərtərəfli təkmilləşməsi" kimi müəyyənləşdirir, daxili pedaqoji prosesi orqanizmin və mühitin xüsusiyyətləri ilə müəyyən olunan insanın özünüinkişafı prosesi kimi qəbul edirdi. "P.F.Kapterev tərəfindən əsaslandırılan "pedaqoji proses" ifadəsi sonralar işlənməkdən qaldı. Təlim və tərbiyə proseslərinə ayrı-ayrılıqda yanaşılaraq, "təlim-tərbiyə prosesi" aktuallaşdı. XX əsrin 70-80-ci illərindən təlim və tərbiyə proseslərinin vəhdəti problemi işləndi və pedaqoji proses problemini doğurdu" (1, s. 107-108).

Pedaqoji fikir klassiklərindən Y.A.Komenski, İ.H.Pestalotsi, J.J.Russo, K.D.Uşinski, A.S. Makarenko və başqalarının əsərlərində pedaqoji proses anlayışları pedaqoji qanunauyğunluq meyarları baxımından şərh olunmuşdur.

Bəzi tədqiqatlarda pedaqoji qanunauyğunluq anlayışı şərh edilərkən onun proses olaraq dinamik inkişaf xüsusiyyətləri, səbəb və nəticə əlaqələrinin mahiyyəti açıqlanmır.

XX əsrin ikinci yarısında pedaqoji qanunauyğunluqların, ümumilikdə pedaqoji prosesin tədqiqinə dəyərli töhfələr vermişdir.

N.M. Kazımov pedaqoji prosesin kompleks əsaslarını müəyyənləşdirmək baxımından milli və ümumbəşəri dəyərlərin xarakterik xüsusiyyətlərini, inkişaf qanunauyğunluqlarını, elmi-metodoloji prinsiplərini, onların reallaşdırma yollarını ümumiləşdirən bir nəzəriyyə vermişdir.

"Milli və ümumbəşəri dəyərlərin, yəni sistemləşdirilmiş biliklərin, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin və psixoloji qüvvələrin adamlara məqsədyönlü, planlı və mütəşəkkil aşılanması pedaqoji prosesdir" (5, s. 34). Buradan belə nəticəyə gəlmək olur ki, məktəblilərin pedaqoji prosesdə əldə etdikləri bilik və bacarıqlar özündə ümumbəşəri dəyərləri əks etdirməklə yanaşı, milli dəyərləri də əks etdirməlidir. Çünki, pedaqoji prosesin tərkib hissəsi olan təhsil özü də ümumbəşəri dəyərdir. Ancaq bu o, demək deyil ki, milli dəyərlər nəzərə alınmasın. "Pedaqoji prosesin strateji məqsədi – milli və ümumbəşəri dəyərləri gənc nəslə məqsədyönlü, planlı və mütəşəkkil aşılamaq yolu ilə respublikamızın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, dövlət müstəqilliyini qorumağa, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirməkdən ibarətdir " (5, s. 41).

Ümumbəşəri dəyərlərin ön plana keçdiyi müasir dünyada hər bir ölkə özünün milli təhsil sistemini və tərbiyə məqsədini müəyyənləşdirərkən milli-mənəvi dəyərlərə, milli mədəniyyətə, milli intellektual potensiala, milli kadrlara istinad etməlidir. Lakin bununla yanaşl, dünya mədəniyyətindən təcrid olunaraq yalnız öz mədəniyyətinə qapılma mədəni sivilizasiyanın qarşısını alaraq milləti dünya mədəniyyəti sırasından çıxarardı.

Məntiqi baxımdan da belədir ki, bəşəri dəyərlərdən öncə milli-mənəvi dəyərlərə yiyələnmək zəruridir. Çünki milli mənsubluq hər bir insanın kimliyini müəyyən edir. Ümummilli lider H.Ə. Əliyevin "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir" – məşhur kəlamı bu fikrin bariz təsdiq simvoludur.

Ə.Ə. Ağayev pedaqoji prosesin həyata keçirilməsində nəzərə alınmalı olan vacib şərtlərə diqqəti yönəldir: "Onun birincisi, tədris-təlim-tərbiyə işinə – pedaqoji prosesə bələdlik, daha doğrusu, bu təcrübənin yüksək səviyyədə daşıyıcısı, ustası olmaq. İkincisi, bu məsələlər üzrə elmi-nəzəri fikrə, ideyalara, pedaqogika elminə dərindən yiyələnmək. Bunlar təkcə görünən tərəflərdir. Pedaqoji işdə intuisiya ilə duyulan, ləyaqət və mənəviyyat saflığı tələb edən, müəllim-şagird əməkdaşlığı şəraitində meydana çıxa bilən münasibətlər ola bilər ki, bunu hər iki tərəf pedaqoji duyum, etika, taktiki yanaşma ilə şəxsi qabiliyyəti, mədəniyyəti səviyyəsində həll edir" (1, s. 108).

Azərbaycan Respublikasının Təhsil Qanununda qeyd olunur: "Milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq" təhsilimizin əsas məqsədlərindən biridir (2). Həyata keçirilən bilik, bacarıq və vərdişlər şagirdi şəxsiyyət kimi formalaşdırmalı, onun əxlaqi-mənəvi keyfiyyətlərini, humanist dəyərlərini yüksəltməyə xidmət etməlidir. Müəllim və şagird arasında baş verən qarşılıqlı təsir məktəblilərin yeni biliklər əldə etməsinə, əldə edilən bilik və təcrübənin onların xarakter və tərbiyə keyfiyyətlərini dəyişməsinə gətirib çıxarır.

Z.İ. Qaralov özünün elmi cəhətdən əsaslandırılmış "Tərbiyənin sağlam üçlüklər (3+3+3) nəzəriyyəsi"nin tərbiyə probleminin ta-

mamilə yeni bir müstəvidə həllinə geniş imkanlar açacağına əmin olduğunu bildirir: "Kamil insan, sağlam ailə və cəmiyyət yalnız mənbəyi ailə–məktəb–ictimaiyyət əlbirliyindən, məzmunu milli-mənəvi, ümumbəşəri və dünyəvi dini mədəniyyət nümunələrinin cəmindən, metodologiya və texnologiyaları çoxtərəfli insan–təbiət–cəmiyyət qarşılıqlı münasibətlər mədəniyyətindən yaranan tərbiyə sistemləri əsasında yetişə bilər" (6, s. 140).

İnsan şəxsiyyətinin formalaşması tam şəkildə baş verir. Yəni real həyatda gedən formalaşma ayrı-ayrılıqda baş vermir. İnsanın əqli keyfiyyətləri onun əxlaqi-mənəvi keyfiyyətlərindən ayrılıqda inkişaf etmir. Şəxsiyyəti ifadə edən əqli və əxlaqi keyfiyyətlər bir-birinə təsir göstərir və bu təsir nəticəsində onların qarşılıqlı inkişafı baş verir. Hər bir keyfiyyətin inkişafı, formalaşması digər keyfiyyətin formalaşdırılmasını zəruri edir. Pedaqoji prosesin necə təşkil olunmasından, müəllim-şagird fəaliyyətinin müxtəlifliyindən, orijinallığından çox şey asılıdır. Pedaqoji proses zamanı müəllim şagirdlərin hərtərəfli inkişafının qayğısına qalmalıdır. Şagird həm bilik və bacarıqlar əldə etmək üçün əqli mədəniyyətə, sağlamlıq üçün fiziki əməyə, həm də milli-mənəvi dəyərlərə yiyələnmək üçün estetik-bədii yaradıcılıq fəaliyyətinə cəlb edilməlidir ki, onun şəxsiyyətinin inkişafında ahəngdarlıq pozulmasın.

Pedaqoji prosesdə həyata keçirilən komponentləri əmək prosesi kimi də qiymətləndirmək olar. Çünki öyrədən və öyrənən arasında baş verən fəaliyyət onların birgə məqsədlərindən doğur. Qarşıya məqsəd qoyulur və bu məqsədə çatmaq üçün öyrədən və öyrənən birgə əmək sərf edir. Eyni zamanda pedaqoji proses zamanı müəllim şagirdlə qarşılıqlı təsirdə olaraq, onun cəmiyyətdə gərəkli insan, Vətən üçün faydalı vətəndaş kimi formlaşması üçün səy göstərir. Bunları nəzərə alaraq demək olar ki, pedaqoji proses zamanı şagird sosial-ictimai həyat hadisələrinə, sosial fəaliyyətə hazırlanır. Onlar artıq cəmiyyətdə baş verən hadisələr haqqında müstəqil fikir yürüdə bilir, bildiklərini sərbəst ifadə edə bilir, mühakimə yürüdə bilirlər. Onların əməyi bir-birinə qovuşur və hər iki tərəf dinamik inkişafa doğru irəliləyir. Müəllim bu prosesin vacib daşıyıcısıdır. O, təlim-tərbiyə prosesinin əsas motivasiya qaynağı, təlimin hərəkətverici qüvvəsidir.

Pedaqoji proses zamanı şagirdlərdə yeni təsəvvürlər, bilik və bacarıqlarla yanaşı elmi dünyagörüş, əqidə, ideal, əxlaqi-mədəni və milli-mənəvi keyfiyyətlər də inkişaf edir, formalaşır. Buradan belə qənaətə gəlmək olur ki, pedaqoji prosesin komponentlərinin ayrı-ayrılıqda həyata keçirilməsi mümkün deyildir. Onlar tam bir vəhdət halında həyata keçirilən ictimai əmək prosesidir. "Tərbiyə də təlim kimi üç funksiyanı – sırf tərbiyəvi, öyrədici və inkişafetdirici funksiyanı yerinə yetirir. Təlim prosesində elmi anlayışların, təsəvvürlərin, qanun və nəzəriyyələrin, bacarıq və vərdişlərin formalaşması, tərbiyə prosesində isə əxlaqi, ideya, estetik və s. keyfiyyətlərin, qaydaların, ideyaların, ictimai mənalı münasibətlərin, davranışların formalaşması üstünlük təşkil edir. Təlim və tərbiyə uşaqların psixi inkişafını şərtləndirdiyi kimi, inkişaf da öz növbəsində təlim və tərbiyənin müvəffəqiyyətinə imkan verir " (4, s. 203).

Səmərəli nəticələrə nail olmaq üçün müəllim fəaliyyətinin və məktəbdə təlim-tərbiyə prosesinin monitorinqinin aparılması mühüm əhəmiyyətə malikdir.

Təlim-təhsil proseslərində aparılan monitorinq və qiymətləndirmənin əsas məqsədi şagirdlərin bilikləri hansı səviyyədə mənimsəməsi, müəllimlərin hazırlıq səviyyəsi, dünyagörüşü, məktəbin məqsədi, ab-havası, təlim imkanları, valideynlərin müəllimlərlə ünsiyyəti kimi vacib məsələlərin araşdırılmasıdır.

"Təhsilalanlarda ümumi kompetensiyaların formalaşmasında və təlim nəticələrinə nəzarətdə tədris-təlim prosesinin təşkilinin ən vacib komponenti pedaqoji monitorinq hesab edilir" (7, s. 6). "Competence" yunan sözü olub, "səriştəlilik" kimi tərcümə olunur. Təlim-təhsil prosesində səriştəlilik dedikdə, yerinə yetirilən işin məsuliyyətlə, şərəflə, ləyaqətlə həyata keçirilməsi və mükəmməl bilik almaq, alınan biliyi düzgün təhlil edib, onu başqalarına xeyir vermək üçün intellektual səviyyədə həyata keçirmək başa düşülür. Təlim-təhsil kompetensiyasının formalaşmasında pedaqoji monitorinq mühüm əhəmiyyətə malikdir. Yəni, pedaqoji prosesdə yüksək səriştə əldə edilməsi üçün pedaqoji kadrların dünyagörüşü, əmək fəaliyyəti, sə-

riştəliliyi, təhsilalanların mənimsəmə səviyyələri ilə bağlı göstəricilər dərindən öyrənilməlidir.

Təhsil işinə müasir yanaşma əsasən ümumi təlim nəticələrinin müəyyənləşməsini, mövcud məsələyə konseptual baxış və modern yanaşmanı, təhsildə dinamikanın və innovativ texnologiyanın yaradılmasını tələb edir. Təlimin əsas təşkilat forması olan "...dərs – yalnız pedaqoji kateqoriya olmaqla məhdudlaşmır, həm də ictimai, sosial, iqtisadi, siyasi komponent kimi çıxış edir. Həmin cəhətlər üzrə cəmiyyətin sifarişini yerinə yetirmək missiyasını daşıyır. Doğrudur, pedaqoji fəaliyyət nə siyasi, nə də iqtisadi fəaliyyət deyil. Lakin siyasi, iqtisadi vəzifələrin yerinə yetirilməsinə gərəkli insan yetişdirməklə kömək edir" (1, s. 58).

Belə qənaətə gəlmək olur ki, təhsil sistemi daxilində olan bütün pedaqoji heyət daim tədqiqat işi aparmalı və bu zaman dünya təhsil sistemindən bəhrələnməlidir.

Müasir dövrdə cəmiyyətin sürətli inkişafı təlimin məqsədinin, məzmununun, istifadə olunan texniki vasitələrin, texnologiyaların müasirləşdirilməsi üçün qarşıya yeni tələblər qoyur. Təlimin qarşısında duran əsas tələb təhsilverici, öyrədici funksiyası ilə yanaşı, tərbiyəedici, inkişafetdirici funksiyalarının da önəmli olmasıdır. Təlim məqsədlərinin kompleks – öyrədici, tərbiyəedici, inkişafetdirici şəkildə dinamik inkişafında monitorinq və qiymətləndirmənin rolu böyükdür. Qarşıya qoyulmuş bu məqsədin kompleks şəkildə tətbiq edilməsi təlim-tərbiyənin, nəticədə isə təhsilin keyfiyyətini artırır.

Pedaqoji prosesdə həyata keçirilən təlim strategiyaları tərbiyəedici əhəmiyyətini itirməməlidir. Təlim strategiyalarının səmərəliliyi məhz şagirdlərdə həyati bacarıqların, əxlaqi-mənəvi keyfiyyətlərin, milli və bəşəri dəyərlərin inkişaf etməsi, bu inkişafa uyğun onlarda intellektual, ləyaqətli davranış mədəniyyətinin formalaşması səviyyəsi ilə müəyyən olunur. Bu gün müəllimlərin üzərinə düşən ən məsul vəzifə yaradıcı, çevik, aydın, tənqidi düşünən, müstəqil təfəkkürə, həyati bacarıqlara, milli-mənəvi və bəşəri dəyərlərə malik gənc nəsil yetişdirməkdir. Bu işin təşkili zamanı qarşıya qoyulan məqsəd tam şəkildə aydın olmalıdır. Müəllim üzərinə düşən məsuliyyətin nədən ibarət olduğunu və şagirddən nə istədiyini yaxşı bilməlidir. Məqsədə nail olmaq üçün qarşıya qoyulan vəzifələr konkret, tələblər nəticəyönüü olmalıdır.

Bu bir həqiqətdir ki, tərbiyə sahəsində monitorinqin həyata keçirilməsi bir sıra çətinliklər yaradır. Hansı ki, tətbiq edilən təlim strategiyalarında tərbiyəlilik və inkişafetdiricilik meyarlarının müvafiq səviyyədə həyata keçirildiyi təqdirdə keyfiyyətli təhsilə nail olmaqdan söhbət gedə bilər. Pedaqoji proses zamanı müəllimin həyata keçirdiyi uğurlu təlim strategiyalarında şagirdlərin dünyagörüşünü artıran, onların milli zəmində mədəni və intellektual səviyyəsini yüksəldən, ümumbəşəri dəyərlərə həssas və tolerant münasibət bəsləməyi aşılayan məqamlara diqqət yetirməsi təhsil sisteminin qarşısında duran vətəndaş-şəxsiyyət yetişdirmək məqsədinə nail olmaq işini asanlaşdırar.

Bu baxımdan, təhsil sistemində xüsusi bir idarəetmə mexanizmi – monitorinq (izləmə) sistemi inkişaf etdirilməlidir. Bu tipli monitorinqin bir növü təhsil müəssisələrində psixoloji xidmət mütəxəssisləri tərəfindən aparılmış uşaq və yeniyetmələrin tərbiyəedici və inkişafetdirici tərəflərinin diaqnozu, psixoloji cəhətdən aparılan monitorinqi ola bilər.

Psixoloji xidmət istiqamətində monitorinqin aparılması elmi-praktik əhəmiyyətə malikdir. Onun verdiyi məlumatlara:

• uşaqların və yeniyetmələrin əqli inkişaf dinamikasına nəzarəti təmin etmək;

• psixoloq və müəllimlər tərəfindən göstərilən hədəf üzrə fəaliyyətin effektivliyini qiymətləndirmək;

• təhsil sisteminin inkişafı ilə bağlı ümumi meyarları müəyyən etmək, əldə olunan nəticələrlə sonrakı fəaliyyət istiqamətlərini müəyyənləşdirmək və s. daxildir.

Təlim zamanı şagirdin öyrəndikləri onu gələcəkdə yalnız elm və təhsil həyatının yararlı, fəal üzvünə çevirmir. Eyni zamanda bunun sayəsində o ümumbəşəri, milli və mənəvi dəyərlərlə yaxından tanış olur, düzgün davranış normalarına, ünsiyyət mədəniyyətinə, özünənəzarət mexanizminə yiyələnir. Deməli, təlimin bütün komponentləri bir-biri ilə zəncirvari iyerarxiya üzrə üzvi surətdə bağlıdır. Onları ayrı-ayrılıqda həyata keçirmək, və ya birinin rolunu digərindən çox vurğulamaq düzgün olmaz. Bütün təlim məqsədləri kompleks şəkildə həyata keçirilir. Yalnız bu zaman təlimin səmərəliliyindən və

daha səmərəli nəticələr əldə olunmasından danışmaq olar.

Ziddiyyətlər böyüməkdə olan nəsildə intellektual-psixoloji, əxlaqi-mənəvi keyfiyyətlərin inkişaf dinamikasına əsaslı dərəcədə təsir göstərir. Ziddiyyətlər zamanı pedaqoji prosesdə daxili və xarici hərəkətverici qüvvələr əsas rol oyanır.

Pedaqoji prosesin daxili hərəkətverici qüvvəsi kimi şagirdlərin qarşıya qoyduğu tələb və inkişaf edə bilmə istəkləri ilə onların bu tələbləri yerinə yetirmək imkanları arasındakı ziddiyyətlər çıxış edir. Yaranan ziddiyyətlər o zaman şagirdləri inkişafa doğru aparar ki, qarşıya qoyulan tələblər onların potensial imkanlarına uyğun gəlsin. Bu baxımdan müəllimin təsir göstərdiyi imkanlarla şagirdlərin müəllimin göstərdiyi təsiri qəbul etmək imkanları da uyğun olmalıdır.

Xarici ziddiyyətlər dedikdə, prosesin baş verməsinin real şəraiti ilə şagirdlərin uğurlu nəticə əldə edə bilmələri üçün lazım olan şərait arasında olan uyğunsuzluqlar başa düşülür. Belə ki, pedaqoji prosesin səmərəli təşkil edilməsini həm də maddi-texniki baza dəstəkləməlidir. Burada tədris laboratoriyaları, təhsilalan və təhsilverənlər üçün mebel avadanlığı, informasiya-kommunikasiya texnologiyaları, audio-vizual avadanlıqlar, tədris-əyani vəsaitləri, təlimin texniki vəsaitləri, dərsliklər, məşğələ keçiriləcək sinfin optimal şəraiti nəzərdə tutulur. Bütün bunları nəzərə alaraq, müəllim pedaqoji proses zamanı daxili və xarici ziddiyyətləri mütləq nəzərə almalıdır.

Pedaqoji prosesin təşkilində təlim və tərbiyə prinsipləri arasında qarşılıqlı əlaqənin gözlənilməsi mühüm əhəmiyyətə malikdir. Təlimin prinsiplərini tərbiyənin prinsipləri ilə eyniləşdirən A. Disterveq deyirdi: "Təlim tərbiyənin tərkib hissəsi, ayrılmaz tərəfidir, təlimi tərbiyədən süni surətdə ayırmaq mümkün deyil. Təlimin prinsipləri eynilə tərbiyənin prinsipləridir" (3, s. 20). Hörmətlə tələbkarlığın vəhdətinin təmin edilməsi tərbiyə işində ciddi nəzərə alınmalı olan məsələlərdəndir. Müəllim şagirdə tələbkarlıq göstərməklə onun şəxsiyyətinə olan hörmətin nə dərəcədə zəruri olduğunu unutmamalıdır. Müəllim şagirdə valideyn qayğısı göstərərək ona nəvaziş, qayğı göstərdikdə öz ədalətliliyini, humanistliyini qorumuş olur. Lakin bununla yanaşı o ciddiliyi, tələbkarlığı da paralel olaraq həyata keçirməlidir. Burada L.N. Tolstoyun bir fikrini xatırlamaq yerinə düşər. O, şagirdi valideyn kimi sevən müəllimi, çoxlu kitablar oxumuş, lakin nə işi, nə də şagirdi sevməyən müəllimdən üstün tuturdu (10, s. 513).

Pedaqoji prosesdə biliklərin əldə edilməsi düzgün münasibətlərin əsasını təşkil edir, düzgün qurulmuş münasibətlər isə öz növbəsində yeni biliklərin qazanılması üçün əlverişli şərait yaradır. Bu kontekstdə formalaşan münasibətlər məktəbliləri cəmiyyətin layiqli üzvü, milli-mənəvi və bəşəri dəyərlərə, fəal vətəndaşlıq mövqeyinə malik vətəndaşlar kimi böyüməyə istiqamətləndirir. Deməli, təlim tərbiyəni, tərbiyə isə öz növbəsində təlimi şərtləndirir və bu, böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafını təmin edir. Əldə olunan bilik və münasibətlər sferası bir-birindən təcrid oluna bilməz. Bu əlaqənin gözlənilməsi müəllimdən tələb edir ki, pedaqoji prosesdə təlimlə tərbiyəni, inkişafla formalaşmanı vəhdətdə götürsün.

Lakin bu zaman şagirdin nöqsanlarını, çatışmayan cəhətlərini çox da qabartmaq olmaz. Şagirdin az da olsa, müsbət cəhətlərini, mənəvi keyfiyyətlərini görə bilməyən, onun yalnız nöqsanlarını, çatışmayan cəhətlərini qabarıq şəkildə tez-tez üzə vuran müəllim mənəvi cəhətdən ondan uzaqlaşır və bununla o, pedaqoji prosesdə müvəffəqiyyətsizliyin bünövrəsini qoymuş olur.

Pedaqoji prosesin hər bir fəaliyyət sferasında etik davranış qaydalarına riayət olunmalıdır. "Hər bir müəllim etik davranış qaydalarına əməl etməyə borcludur" (9). Müəllimin şagirdlərə bəslədiyi münasibət onun pedaqoji mərifətindən xəbər verir. Onun malik olduğu intellektual səviyyəsi və davranış mədəniyyəti dərs prosesində, sinfin təşkili və idarə olunmasında, dərsdənkənar tədbirlərdə, həmçinin asudə vaxtın təşkilində özünü büruzə verir.

Ümumiyyətlə, hər bir insanın özünə, ailəsinə, ətrafındakı insanlara, kollektivinə qayğılı münasibəti nə qədər geniş, səmimi və dərin olarsa, onda doğma yurduna, ölkəsinə, dövlətinə, xalqına, millətinə, bəşəriyyətə, milli-mənəvi və bəşəri dəyərlərə bağlılıq da o qədər güclü olar.

**Problemin aktuallığı.** Təlim məqsədlərinin kompleks olaraq öyrədici, tərbiyəedici, inkişafetdirici şəkildə dinamik inkişafında monitorinq və qiymətləndirmənin rolu böyükdür. Qarşıya qoyulmuş məqsədin kompleks şəkildə tətbiq edilməsi məktəblilərdə milli-mənəvi və bəşəri dəyərlərin formalaşdı-

rılmasını, nəticədə isə ümumilikdə təhsilin keyfiyyətini artırır.

**Problemin elmi yeniliyi.** Pedaqoji prosesdə milli maraqları, milli-mənəvi dəyərləri qorumaqla bərabər, qlobal miqyasda bəşəri meyarlara cavab verən sistemli yanaşmanın formalaşdırılması imkanları geniş şəkildə şərh edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Pedaqoji prosesin bütün mərhələlərində məktəblilərdə milli-mənəvi və bəşəri dəyərlərin formalaşdırılması istiqamətində bu işlə məşğul olan pedaqoji peşə sahiblərinə öz köməyini göstərəcəkdir.

**Ədəbiyyat:**

1. Ağayev Ə.Ə. Seçilmiş pedaqoji əsərləri 2 cilddə. I cild. Bakı: Mütərim, 2011
2. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. Bakı: Qanun, 2009.
3. HəsənovA., Ağayev Ə. Pedaqogika. Bakı: Nasir, 2007
4. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. I cild, Bakı: Mütərcim, 2013
5. Kazımov N. M. Məktəb pedaqogikası. Bakı: Çıraq, 2011.
6. Qaralov Z.İ. Tərbiyə (prinsiplər, məzmun, metodika, hüquq). III cild. B: Pedaqogika, 2003
7. Mehrabov A.O. "Təhsilanlanlarda ümumi kompetensiyaların formalaşmasında pedaqoji monitorinqin imkanları" // Azərbaycan məktəbi, 2012, № 6
8. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: Mütərcim, 2007
9. Müəllimlərin etik davranış qaydaları. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli, 600 nömrəli əmri.
10. Rüstəmov F. Pedaqogika tarixi (Xarici ölkələrdə təhsil və pedaqoji fikir tarixi). Bakı, Nurlan, 2006.

**E-mail:** qi.afiq1958@gmail.com
**Rəyçilər**: *ped.ü.e.d., prof.* H.Ə. Əlizadə
*ped.ü.f.d., dos.* V.P. Bəşirov

**Redaksiyaya daxil olub:** 08.02.2021